# Cəbrayılın azad olunması: Azərbaycan torpaqlarının bərpasında mühüm mərhələ

*(əvvəli ötən sayımızda)*

***Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) qazisi Rəşad Nəsibli qeyd edir ki, Cəbrayıl uğrunda əməliyyatlara Lələtəpə istiqamətindən başlanılmışdı. Düşmən Cəbrayılın azad ediləcəyini dərk etdikdə, bütün artilleriya qüvvələrini bu istiqamətdə cəmləmişdi. Döyüşlərin ilk mərhələsində gizir İlkin Zülfüqarov şəhid olur, lakin bu itki Azərbaycan əsgərinin qətiyyətini sarsıtmır.***

Cəbrayılın azad olunması uğrunda döyüşlərdə iştirak etmiş digər XTQ qazisi Şəhruz Tarverdiyev isə bildirir ki, həmin vaxt erməni qüvvələri Azərbaycan Ordusuna nisbətən daha yüksək mövqelərdə yerləşmişdi. "Teleqüllə" istiqamətində iki gün ərzində şiddətli və amansız döyüşlər getmişdir. Döyüşlər zamanı Azərbaycan bölmələri itkilər versə də, Ermənistan Silahlı Qüvvələrinin 300-dən çox şəxsi heyətindən 150-dən çoxu məhv edilir, qalanları isə mövqelərini tərk etməyə məcbur olur. Nəticədə Cəbrayıl şəhəri Azərbaycan Ordusunun nəzarətinə keçir.

Beləliklə, sentyabrın 27-dən oktyabrın 3-dək davam edən gərgin və intensiv döyüşlər nəticəsində Azərbaycan Ordusu Nüzgar və Böyük Mərcanlı kəndini azad edir. Böyük Mərcanlının azad edilməsi müharibənin gedişində strateji baxımdan dönüş nöqtəsi hesab olunur. Bu əməliyyat nəticəsində Ermənistan silahlı birləşmələri cəbhənin həmin sektorunda ağır itkilər verərək geri çəkilməyə məcbur qalır.

Böyük Mərcanlının ələ keçirilməsindən sonra Mehdili və Çaxırlı istiqamətlərində yerləşən erməni qüvvələri demək olar ki, ciddi müqavimət göstərmədən mövqelərini tərk edirlər. Kəndin cənubunda yerləşən Aşağı Maralyan və Karxulu yaşayış məntəqələri isə Azərbaycan Hərbi Dəniz Qüvvələrinin xüsusi təyinatlı dəstələri tərəfindən azad edilir. Qeyd olunan kəndlərin qərb istiqamətində qısa müddət ərzində düşmənin müqaviməti tam şəkildə qırılır.

Böyük Mərcanlının cənubundakı dağlıq ərazidə 100 mm-lik "KS-19" zenit topunun "Spike" idarəolunan raket kompleksi vasitəsilə məhv edilməsi həmin istiqamətdə baş verən əsas döyüş epizodlarından biri kimi qeyd olunur. Bu mərhələdən etibarən Azərbaycan Ordusunun qarşısında Araz çayı boyunca Sarıcalı-Əmirvarlı-Soltanlı xəttinə qədər ciddi müqavimət göstərə biləcək erməni hərbi qüvvəsi qalmamışdı.

Növbəti mərhələ Quycaq kəndinin azad edilməsi istiqamətində başlanır. Azərbaycan hərbi komandanlığı həmin kənddəki düşmən mövqelərini uzaqdan müşahidə və nəzarət altında saxlayırdı. Komandanlığın məqsədi Nüzgar və Böyük Mərcanlı istiqamətindəki Azərbaycan bölmələrinə artilleriya dəstəyinin çatmasının qarşısını almaq olduğundan, sentyabrın 30-dan etibarən Quycaq ərazisi "Bayraktar TB-2" PUA-ları ilə atəşə tutulmağa başlanır.



Kənddəki düşmən texnikaları və artilleriya qurğuları məhv edildikdən sonra Azərbaycan bölmələri Nüzgar kəndi istiqamətindən hücuma keçir. Lakin hücumun əvvəlində xüsusi təyinatlılar mühasirəyə düşür. Xüsusi təyinatlı gizir Asim Quliyev xatırlayır: "Mühasirədə olduğumuz zaman artilleriya dəstəyi çağırdıq. Artilleriya mövqelərini dəyişərək ehtiyat postlara keçirdi. Məhz bu yerdəyişmə zamanı biz mühasirəyə düşdük. Hər tərəfdən mərmilər üstümüzə yağış kimi yağırdı. Bu zaman 17 nəfər şəhid verdik. Artilleriyanı çağıranda hərbi hava qüvvələrinin pilotu, kapitan Səfərov 2-ci qrupun komandiri ilə əlaqəyə çıxaraq bizə bildirdi ki, iki istiqamətdən dəstək tələb olunur. Kapitan yalnız bir istiqamətdən kömək edə biləcəyini dedi və Nüzgar kəndi istiqamətində hava zərbəsi endirərək düşmən qüvvələrini məhv etdi. Sonra isə biz həmin mövqeləri yararaq „Quycaq kəndinə irəlilədik". Bu epizod Azərbaycan xüsusi təyinatlılarının və hava dəstəyinin koordinasiyalı əməliyyatının döyüşün gedişində necə kritik rol oynadığını göstərir.

Azərbaycan xüsusi təyinatlıları müdafiə xəttini yardıqdan sonra oktyabrın 3-də Quycaq kəndinə daxil olurlar. Xüsusi təyinatlı gizir Asim Quliyev döyüşləri belə xatırlayır: "Quycaq kəndində düşmənin üçüncü müdafiə zolağı mövcud idi və orada müqavimət göstərirdilər. Əsas çətinliyimiz isə ac və susuz olmağımız, 6 gün fasiləsiz hərəkət etməyimiz və Nüzgar kəndində mühasirədən çıxmağımız idi. Buna görə də onların yüngül müqaviməti belə bizə ağır gəlirdi." Beləliklə, o qədər intensiv olmayan döyüşlərdən sonra Azərbaycan bölmələri oktyabrın 3-də Quycaq kəndinə tam nəzarəti ələ keçirir. Həmin gün Ali Baş Komandan İlham Əliyev Cəbrayılın Mehdili, Çaxırlı, Aşağı Maralyan, Şəybəy və Quycaq kəndlərinin azad olunması xəbərini verir.

Azərbaycan bölmələrinin bir qismi Quycaq kəndinin azad olunmasından sonra şimal-qərb istiqamətinə dönərək Daşkəsən kəndinə, əsas hissəsi isə Horovlu-Papı istiqamətində birbaşa Cəbrayıl şəhərinə doğru irəliləyir. Onlara Araz boyunca Şükürbəyli-Furqanlı-Tulus istiqamətindən digər qruplar kömək edirdi. Beləliklə, oktyabrın 3-də Cəbrayıl uğrunda döyüşlər başlayır.

***Ukraynalı hərbi ekspert Yuri Podolyakın təhlili Cəbrayıl döyüşünü II Qarabağ müharibəsinin taleyini həll edən əsas əməliyyat kimi təqdim edir. Onun fikrincə, bu döyüş bir neçə səbəbə görə xüsusi əhəmiyyət daşıyır:***

*1. Əməliyyatın miqyası və qüvvələrin cəmlənməsi: Hər iki tərəfdən təxminən 25-30 min nəfərlik hərbi kontingentin döyüşə cəlb olunması əməliyyatın geniş miqyaslı və strateji xarakter daşıdığını göstərir. Bu göstərici Cəbrayıl istiqamətində aparılan əməliyyatın müharibənin gedişinə sistemli təsirini sübut edir;.*

*2. Erməni tərəfinin məğlubiyyəti: Podolyak qeyd edir ki, Cəbrayıl döyüşü Ermənistan Silahlı Qüvvələrinin II Qarabağ müharibəsində üzləşdiyi ən ciddi məğlubiyyətlərdən biri olmuşdur. Bu itki həm ordunun döyüş qabiliyyətinə, həm də Ermənistanın daxili siyasi sabitliyinə mənfi təsir göstərmişdir;*

*3. Erməni qüvvələrinin taktiki yanaşması: Ermənistan tərəfi ilkin mərhələdə müdafiə mövqelərini tərk edərək Azərbaycan Ordusunun irəliləməsini "rəsmi şəkildə tanımaq" taktikasını tətbiq etmişdir. Lakin Azərbaycan Ordusu bu manevri öncədən nəzərə alaraq planlı şəkildə gözləmə mövqeyində qalmış, daha sonra sinxronlaşdırılmış üçtərəfli hücumla düşmən qüvvələrini tam məhv etmişdir. Bu əməliyyat nəticəsində Ermənistan tərəfi canlı qüvvə, hərbi texnika və silah-sursat baxımından ciddi itkilər vermişdir;*

*4. Azərbaycanın strateji komandanlıq və idarəetmə üstünlüyü: Ekspertin fikrincə, Azərbaycan hərbi-siyasi rəhbərliyi əməliyyatın bütün mərhələlərini yüksək səviyyədə planlaşdırmış, hər bir tapşırığın icrasına sistemli nəzarət həyata keçirmişdir. Əməliyyatın dəqiqliklə koordinasiyası və qərarların çevik icrası uğurun əsas təminatçısı olmuşdur;*

*5. Hücum və qarşıhücum strategiyasının tətbiqi: Ermənistan ordusu Hadrut istiqamətindən Araz vadisinə doğru perpendikulyar istiqamətdə əks-hücum planlaşdırmışdır. Azərbaycan Ordusu isə bu manevri kəşfiyyat vasitəsilə izləyərək düşmənin müəyyən mövqeyə qədər irəliləməsinə şərait yaratmış, daha sonra üç istiqamətdən koordinasiyalı hücuma keçərək erməni qüvvələrini tam şəkildə neytrallaşdırmışdır.*

***Podolyak döyüşün taktik və strateji əhəmiyyətini yüksək qiymətləndirərək Azərbaycan əsgərlərinin qəhrəmanlığını, soyuqqanlı qərar qəbul etmə qabiliyyətini xüsusi qeyd edir. Onun sözlərinə görə, Cəbrayıl əməliyyatı yalnız böyük hərbi uğur deyil, həm də gələcək müharibənin taleyini müəyyən edən həlledici döyüş olmuşdur. Əslində, bu analiz döyüşün taktiki və strateji tərəflərini, həmçinin Azərbaycan komandanlığının və əsgərlərinin əməliyyatdakı rolunu aydın şəkildə ortaya qoyur.***

Cəbrayılın işğaldan azad edilməsi əməliyyatları Azərbaycan Ordusunun sürətli hərbi irəliləyişi və düşmənin müdafiə səddlərinin məhv edilməsilə mümkün olub. Bu taktiki uğur yalnız bölgədəki mövqelərin ələ keçirilməsi ilə nəticələnməyib, həm də Ordunun strateji üstünlüyünü təmin edib və müharibənin davamında döyüş meydanında Ermənistan qüvvələrinin mövqeyini zəifləddib. Hərbi ekspertlərin qiymətləndirməsinə görə, Cəbrayılın azad olunması münaqişənin gedişatında dönüm nöqtəsi rolunu oynayıb.

Beləliklə, 2020-ci il Vətən müharibəsində Cəbrayılın işğaldan azad edilməsi Azərbaycanın cənub istiqamətində strateji təşəbbüsü tamamilə ələ keçirməsi ilə nəticələndi. Ermənistan silahlı qüvvələrinin həmin bölgədə formalaşdırdığı dərin müdafiə xətləri Azərbaycan Ordusunun peşəkar və koordinasiyalı əməliyyatları nəticəsində qısa müddət ərzində yarıldı. Bu əməliyyat nəticəsində Laçın dəhlizinə nəzarət təmin olundu, Ermənistanın qanunsuz hərbi-logistika yolları effektiv olaraq məhv edildi və əməliyyatın nəticəsi müharibənin gedişatına birbaşa təsir edən əsas mərhələlərdən biri kimi qiymətləndirildi.

***Gülşən HÜSEYNOVA***
***Azərbaycan Hərb Tarixi Muzeyinin əməkdaşı***